*Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri filosof-şair, böyük dramaturq Hüseyn Cavid yalnız milli ədəbiyyatımızı deyil, dünya ədəbiyyatını da fəlsəfi və bədii dəyərlərlə zənginləşdirmişdir. Onun yaradıcılığı Şərq və Qərb mədəniyyətlərinin sintezi kimi dəyərləndirilir. O, İstanbulda təhsil aldığı dövrdə Avropa yazıçılarının klassik əsərləri ilə tanış olmuş, xüsusilə də alman və fransız ədəbiyyatından təsirlənmişdir. Höte, Şiller və Viktor Hüqonun əsərlərində təsvir olunan azadlıq, mənəvi dəyərlər və insanın daxili aləmi kimi dərin fəlsəfi mövzular dahi şairin poetikasında da mühüm yer tutur.*

xoloji vəziyyəti və fəlsəfi çalarları ifadə edib.

Bu mənada o, hər iki mədəniyyətin sərhədlərini aşan qlobal fikir adamıdır. Onun əsərlərindəki humanist və ümumbəşəri mesajlar Qərb maarifçiliyinin təsiri ilə yanaşı, Şərq irfanının ruhunu da özündə daşıyır.

Bu gün Hüseyn Cavidin yaradıcılığı həm Azərbaycan, həm də beynəlxalq müstəvidə daha dərindən öyrənilməli və təbliğ olunmalıdır. Cavidin yaradıcılıq mirasında Avropa və Şərq mədəniyyətlərinin sintezi müasir mədəniyyətlərarası dialoqun gücləndirilməsi üçün də aktualdır. Hüseyn Cavidin əsərlərinin müxtəlif dillərə tərcüməsi və beynəlxalq səviyyədə təqdimatı onun fikirlərinin və sənətinin daha geniş oxucu kütləsinə çatdırılmasına kömək edə bilər. Məsələn, "İblis" əsərinin alman və ingilis dillərinə keyfiyyətli tərcüməsi Avropa oxucusunun onun fəlsəfi dünyasını daha yaxşı anlamağına şərait yaradacaq.

Böyük dramaturqun Avropa və Şərq mədəniyyətlərini birləşdirən sənətkar olaraq ədəbi irsi bu gün həm Azərbaycan ədəbiyyatı üçün, həm də dünya mədəniyyəti kontekstində xüsusi əhəmiyyət kəsb edir. Onun əsərləri insanın daxili aləmini, mənəvi mübarizəsini və ali məqsədlərə çatmaq üçün fərdi azadlığını tərənnüm edərək oxucuları həm Şərq, həm də Qərb düşüncə dünyası ilə tanış edir.

Cavidin Şərq-Qərb sintezini təmsil edən unikal yaradıcılığı müasir dövrdə mədəniyyətlərarası dialoqun inkişafı üçün də əhəmiyyətli nümunədir. Bu baxımdan, onun irsinin qorunması və dünya miqyasında daha geniş tanıdılması həm Azərbaycan mədəniyyətinin zənginliyini, həm də onun universal dəyərlər sistemindəki yerini nümayiş etdirir.

Beləliklə, Hüseyn Cavid həm Şərq, həm də Qərbin poetik və fəlsəfi ənənələrini öz yaradıcılığında özünəməxsus şəkildə birləşdirərək bəşəriyyətin mədəni sərvətinə əvəzsiz töhfələr vermişdir.

**Jalə ZEYNALOVA,**
**Hüseyn Cavidin Ev-Muzeyinin əməkdaşı.**

# Hüseyn Cavidin ədəbi dünyası: Şərq və Qərbin sintezi



İnsanın sonsuz bilik və məna axtarışı, şeytani təzadlar və mənəvi azadlıq motivləri Cavidin "İblis" əsərində öz əksini tapmışdır. İnsanın daxili mübarizəsini və mənəvi təkamülünü təsvir edərkən Cavid öz qəhrəmanlarını eyni dərinlikdə psixoloji çalarlarla ifadə edib. İnsanın daxili dünyası ilə cəmiyyət arasındakı qarşıdurma, qəhrəmanın məhəbbət və ədalət uğrunda mübarizəsi Cavidin "Şeyx Sənan" əsərində geniş təsvir edilib.

Hüseyn Cavidin "Şeyx Sənan" əsərində Avropa romantizmi ilə tanışlığının izlərini görmək mümkündür. Bu əsərdə fərqli mədəniyyətlərə tolerant münasibət, məhəbbət və insanın mənəvi azadlığı kimi məsələlər əsas xətt kimi önə çıxır. Cavidin qəhrəmanları mənəvi ideallar uğrunda mübarizə aparırlar. İnsanın şər və yaxşılıq arasındakı seçimi, etik dilemma və qəhrəmanın daxili çəkişmələri Cavidin dramaturgiyasında xüsusi yer tutub.

Onun əsərlərində insanın daxili aləmi ilə cəmiyyət arasındakı münasibətlərin dərin təhlili aparılır. "İblis" əsərində insanın mənəvi dünyası ilə xarici təsirlər arasındakı mübarizə paralellik təşkil edir. Hüseyn Cavid Qərb fəlsəfəsinin rasional yanaşmalarını Şərq təfəkkürünün mənəvi dərinliyi ilə birləşdirərək universal dəyərlərə əsaslanan fəlsəfi əsərlər yaratmışdır.

Avropa romantizminin təsirini Azərbaycan və ümumilikdə Şərq mədəniyyətinə uyğunlaşdıraraq yeni bir ədəbi üslub yaratmışdır. Onun bu mövzuda əsərləri Şərq fəlsəfəsi və Qərb rasionalizmi arasında körpü qurmaq baxımından xüsusi dəyərə malikdir. Hüseyn Cavidin əsərlərində tez-tez rast gəlinən mistik elementlər Şərq sufizminin təsirindən xəbər verir. Eyni zamanda bu mistik elementlər Qərb romantizminin azadlıq və fərdi ideallar anlayışları ilə uzlaşdırılır. "Şeyx Sənan" əsərində sevgi və mənəvi axtarış motivləri, "İblis" əsərində isə insanın daxili mübarizəsi həm Şərq fəlsəfi ənənəsinə, həm də Qərb individualizminə işarə edir. Cavidin əsərlərindəki mistik elementlər, Mövlana Cəlaləddin Ruminin "Məsnəvi" əsərindəki mənəvi axtarışlarla da oxşarlığı var. Dahi mütəfəkkirin əsərləri dilin zənginliyi və çoxşaxəliliyi ilə seçilir.

Avropa romantizminin təsiri Cavid poetikasına yüksək dramatizm və emosional gərginlik gətirmişdir. Bu, xüsusilə onun lirik-epik dramlarında özünü göstərir. Klassik Şərq poeziyasının qəzəl və mədhiyyə ənənələri də onun yaradıcılığında mühüm yer tutur. Filosof-şair Hüseyn Cavid öz əsərlərində zahiri hadisələrdən çox, daxili mənanı, psixoloji vəziyyəti və fəlsəfi çalarları ifadə edib.